# “Heydər Əliyev və Azərbaycan ədəbi-ictimai fikri”

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Heydər Əliyev və Azərbaycan ədəbi-ictimai fikri” mövzusunda elmi sessiya keçirilib.**

AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli elmi məclisi giriş sözü ilə açaraq bildirib ki, alimlərimiz ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin dərindən öyrənilməsini, dahi şəxsiyyətin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərinin elmi cəhətdən əsaslandırılmış şəkildə ictimaiyyətə çatdırılmasını önəmli borc hesab edirlər. Ulu öndərin çoxəsrlik tariximizin nadir şəxsiyyətlərindən biri və zirvələri fəth etmiş görkəmli dövlət xadimi olduğunu vurğulayan akademik əlavə edib ki, Azərbaycanın yarıməsrlik inkişaf tarixi Heydər Əliyevin adı ilə bağlıdır.

Qeyd edilib ki, ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi illərdə qısa müddətdə həyata keçirdiyi geniş islahatlarla Azərbaycanı keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevirib. Xalqımızın böyük oğlu 1990-cı illərdə Azərbaycanın müstəqilliyini itirmək təhlükəsini aradan qaldırıb, dövlət orqanlarını yenidən formalaşdırmaqla əbədi müstəqilliyimizin təməllərini yaradıb. Müasir dövrdə isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə daha da inkişaf etdirilib, regionun və dünyanın aparıcı dövlətlərindən birinə çevrilib.



Bildirilib ki, tədbirlər planına əsasən, aprel ayında AMEA-nın “Heydər Əliyev İli”nə həsr olunmuş ümumi yığıncağı keçiriləcək, Azərbaycan və Türkiyə alimlərinin iştirakı ilə “Bir millət – iki dövlət” mövzusunda elmi konfrans təşkil olunacaq. Hazırda “Ümummilli lider Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası” sənədli filminin çəkilişinə hazırlıq aparılır, “Heydər Əliyev Ensiklopediyası”nın sözlüyünün layihəsi tərtib edilir. Ədəbiyyat İnstitutunda isə “Heydər Əliyevin bədii obrazı: tarixilik və müasirlik” adlı monoqrafiya və Heydər Əliyevin Azərbaycan ədəbiyyatı ilə bağlı fərman və sərəncamlarından ibarət toplu nəşrə hazırlanır. “Azərbaycan ədəbiyyatşünaslığı” jurnalının bir buraxılışı ulu öndərə həsr olunacaq.

Elmi sssiyada Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin “Azərbaycan reallığında Heydər Əliyev epoxası”, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun “Müstəqillik dövrü nəsrində Heydər Əliyev”, filologiya elmləri doktoru Elnarə Akimovanın “Ədəbiyyatda azadlıq ideallarının intişarında Heydər Əliyevin rolu”, filologiya elmləri doktoru Əlizadə Əsgərlinin “Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət” və filologiya elmləri doktoru, professor Vüqar Əhmədin “Heydər Əliyev və Azərbaycan mətbuatı” mövzusunda məruzələri dinlənilib.

***R.TAHİR, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 1 mart.- S.5.